**Şahlar Əsgərov: "Bölgələrdə də müəllimlərin sınaq qiymətləndirilməsi aparılmalıdır"**

Bölgələrdəki məktəblərdə çalışan müəllimlərin də bilik və səriştəsinin sınaq qiymətləndirilməsi aparılmalıdır.

Bunu Publika.az-a açıqlamasında təhsil sahəsi üzrə ekspert Şahlar Əsgərov deyib.

Onun sözlərinə görə, gələn aydan Bakı məktəblərində çalışan müəllimlərin bilik və səriştəsinin sınaq qiymətləndirilməsinin aparılması təqdirəlayiq bir addımdır.

"Bu addımın atılması ilə müəllimlərin fərdi bilik və bacarıqlarını öyrənmək mümkün olacaq. Yəni savadlı müəllimlər sırasından daha savadlıları seçilə biləcək", - deyə Ş.Əsgərov əlavə edib.

Qeyd edək ki, təxmini hesablamalara görə Azərbaycanda 320 min müəllim var.

www.publika.az*, **13.05.2014***

---

**Sınaq qiymətləndirmə müəllimlərin keyfiyyət göstəricisini müəyyən edəcək**

Bakı şəhərində müəllimlər üçün sınaq qiymətləndirmə keçirməklə müəllimlərin keyfiyyət göstəricisini müəyyən etmək mümkün olacaq.

Müəllimlərin sınaq qiymətləndirilməsinin aparılmasını çox əhəmiyyətli sayan Milli Məclisin keçmiş komitə sədri, təhsil eksperti Şahlar Əsgərov Trend-ə bildirib ki, Bakı şəhərində çoxlu sayda, on minlərlə müəllim var. Həmin müəllimlərin hamısının hüquq və vəzifəsi eynidir: "Amma biz bunları sınaqdan keçirsək, onların müəllimlik keyfiyyət dərəcəsini müəyyən edə bilərik. Öyrənə bilərik ki, bu yaxşı müəllimdir, bu isə yaxşı müəllim deyil. Bu müəllim fənni yaxşı bilir, amma dünyagörüşündə qüsur var. Ancaq bu müəllimin dünyagörüşü çox yaxşı olsa da, fənni yaxşı bilmir. Bunlar hamısı sınaq qiymətləndirmədə üzə çıxacaq və nəticədə minlərlə müəllimin keyfiyyət göstəricisi əlimizdə olacaq".

Ş.Əsgərov qeyd edib ki, müəllimin keyfiyyət göstəricisi bilindiyi halda, Təhsil Nazirliyi və yerli təhsil şöbələri üçün yaxşı müəllimləri idarəetməyə cəlb etmək imkanı yaranar.

Müəllimlərin bilik və bacarığının öyrənilməsini çox mühüm sayan ekspert deyib ki, sınaq qiymətləndirmə nəticəsində Təhsil Nazirliyi müəllimlər ordusu arasından güvənə bildiyi müəllimləri də seçə biləcək.

Bakı şəhərindəki 23 nömrəli orta məktəbin direktoru Yuliya Kərimova isə Trend-ə bildirib ki, sınaq qiymətləndirmənin nəticələri onun üçün də maraqlıdır: "Mənim üçün də hər il tədris yükü payladığım müəllimlərin biliyinin, professional bacarığının hansı səviyyədə olduğunu bilmək maraqlıdır. Bu sınaq qiymətləndirmə mənə müəyyən məlumatı verəcək. Mən biləcəyəm ki, müəllimlərim hansı səviyyədədir, onların peşəkarlığı necədir".

Y.Kərimova deyib ki, sınaq qiymətləndirmənin nəticələri müəllimlər üçün dərs bölgüsünün aparılmasına təsir etməyəcək. Bu proses təhsil sistemində müəllimlərin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsinə yönələcək və onların fəaliyyətindəki uğurları, çatışmazlıqları müəyyən edəcək. Bunun əsasında müəllimlərin peşəkar fəaliyyətinə müəyyən kömək göstəriləcək: "Bu, nə müəllimlər

üçün dərs yükünün aparılmasına, nə də işlədiyi məktəbdə hansısa status almasına təsir göstərə biləcək qiymətləndirmə deyil".

O qeyd edib ki, rəhbərlik etdiyi məktəbin müəllimləri bu yeniliyi maraqla qarşılayıblar. Onun sözlərinə görə, müəllimlərin sınaq qiymətləndirilməsinin keçirilməsi müəyyən rezonansa da səbəb olub: "Mən deyərdim ki, bu yaxşı bir rezonansdır. Bu, müəllimlər üçün də maraqlıdır. Uzun müddət və qısa müddət məktəbdə işləyən müəllim özünü sınamaq istəyir".

Qeyd edək ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsi iyun ayında paytaxtın ümumtəhsil müəssisələrində çalışan müəllimlərin sınaq qiymətləndirilməsini həyata keçirəcək. Sınaq qiymətləndirmə 3 istiqamətdə - fənn, metodika, kommunikativ qabiliyyətə dair sorğu əsasında aparılacaq.

www.trend.az***, 13.05.2014***

---

**Əjdər Ağayev: "Nazirin əmri müəllimlərin təkmilləşməsi üçün başlanğıc olacaq"**

Təhsil naziri Mikayıl Cabbarov müəllimlərin bilik və səriştəsinin sınaq qiymətləndirməsi barədə əmr verib. Bu əmr bir çox dairələrdə maraqla qarşılanıb. Təhsil Şurasının sədri Əjdər Ağayev Modern.az-a açıqlamasında təhsil sahəsində çalışan müəllimlərin bilik və səriştəsi barədə danışıb. Onun sözlərinə görə, müəllimlər biliklərini hərtərəfli inkişaf etdirməlidirlər: "Maarifçilik fəaliyyətində müəllimin bir vəzifəsi tədris işi, yəni dərs keçmək, təlim-tərbiyə işi ilə məşğul olmaqdırsa, digər vəzifəsi də özünü aparmaqdır. Buna özünütəsdiq deyirlər. Əvvəllər müəllimlər psixoloji, sosioloji, ideoloji kitablar oxuyar və həmin kitablardan öyrəndiklərini tətbiq də edərdilər. Son zamanlar müəllimlər bu qədər özlərini oxumaqdan təcrid ediblər. Nəticədə bəzi müəllimlər təkmilləşməyiblər. Sadəcə, gündəlik mövzu nədirsə, onu tədris edir. Bəzi müəllimlər yeni təlim texnologiyalarını şablondan götürür, bəziləri onu da götürmür. Ona görə də təhsilin təsiri yaxşı olmur, uşağın təhsilə marağı azalır. Bütün bunları aşılamaq üçün Bakı şəhər Təhsil İdarəsi Təhsil Nazirliyinin razılığı ilə müəllimlərlə tədqiqi xarakterdə monitorinq keçirməklə onların nə oxuduğunu dəyərləndirdi. Müəllimlərlə bağlı bu proses ardıcıl getsə, hərəkata çevriləcək. Nəticədə müəllimlər öz üzərində işləyəcək".

Əjdər Ağayev nazir Mikayıl Cabbarovun əmrinə də münasibət bildirib: "Təkmilləşdirmə prosesini məqbul hesab edirəm. Təkmilləşdirmə məcbur edir ki, müəllim öz üzərində işləsin, öyrənsin, müasir texnoloji məsələlərdən xəbərdar olsun. Müəllimlər unutmasınlar ki, indi əvvəlki şərait deyil. Yenilikləri bilmək lazımdır. Bütün müəllimlər təkmilləşsələr, bu təlimin keyfiyyətinə də təsir göstərər. Mənə elə gəlir ki, bu təhsil sahəsində çox yaxşı başlanğıcdır".

www.modern.az***, 13.05.2014***

---

**Nəbatəli Qulamoğlu: "Güman edirəm ki, bu, müsbət nəticələr verəcək"**

"Bu gün Azərbaycan təhsilinin iki başlıca problemi var. Birincisi, kadr məsələsidir. İkinci problem isə müəllimlərin əməkhaqqı ilə bağlıdır. Bu iki problem bir-biri ilə sıx əlaqədədir. Güman edirəm ki, bu iki problemi həll etmədən Azərbaycan təhsilini inkişaf etdirmək olmaz".

Bunu Modern.az-a təhsil eksperti Nəbatəli Qulamoğlu deyib: "Çəkilən zəhmətin mahiyyətindən, fəlsəfəsindən göründüyü kimi, müəllimlərin sınaq imtahanına çəkilməsi məhz diaqnostika xarakteri

daşıyır, müəllimlərin ümumi bilik qabiliyyətlərini yoxlamaq məqsədi daşıyır. Əmrdə qeyd edildiyi kimi, bu, həm də müəllimlərin gələcək attestasiyasına hazırlıq məqsədi daşıyır. Düzgün qərardır. Ümumiyyətlə, Azərbaycan təhsilində kadr məsələsini önə çəkmək lazımdır. Müəllimlərin müasir təhsillə hansı səviyyədə silahlanması, ümumi dünyagörüşü, bunlar hamısı yoxlanmalıdır. Ola bilər ki, bu proses mərhələli şəkildə aparılsın. Hər halda, ilkin yoxlama sınaq xarakteri daşıdığı üçün sürətlə aparıla bilər. Güman edirəm ki, bu, müsbət nəticələr verəcək. Bu günə qədər müəllim özünü arxayın aparırdı və sinfə girib-çıxmaqla işini bitmiş hesab edirdi. Bundan sonra o hiss edəcək ki, həm cəmiyyət, həm də məktəb qarşısında məsul şəxsdir. Başa düşəcək ki, onun işi təkcə siniflə bitmir, o, ictimai fiqur kimi də tanınmalıdır, ölkənin ictimai həyatında ciddi rol oynamış şəxs olmalıdır. Bütün bunlar müəllimin özünün təhsilinə fikir verməsinə səbəb olacaq".

Ekspert müasir müəllimlərin təhsilə olan marağından da danışıb: "Azərbaycan müəllimlərinin müasir təhsilə meyli çox azdır. Sınaq imtahanları bu məsələləri qabardacaq. Müəllim hiss edəcək ki, onun təhsili köhnədir, yalnız əzbər biliklər verir, müəllimin sinifdə özünü hərbçi kimi apardığı kimi təhsildir. Müəllim görəcək ki, müasir təhsil başqa cürdür, burda dioloji təhsil vacibdir. Şagirdlər müəyyən mənada tam kommunikativ əlaqələr qurmalıdır. Müəllim, ümumiyyətlə birtərəfli lektor kimi fəaliyyət göstərməməlidir. Şagirdi istiqamətləndirməlidir, şagird özü öz təhsilini formalaşdırmalıdır. Sınaq imtahanları buna kömək edəcək. Elə müəllimlər var ki, potensialı yoxdur. O təhsil sistemini tərk etməlidir. Yaxşı potensialı olan müəllimlər də var, üzə çıxa bilmir. Belə qiymətləndirmələr prosesə lazımi istiqamət verəcək".

Qeyd edək ki, iyun ayında Bakı şəhərinin bütün dövlət ümumtəhsil müəssisələrində çalışan müəllimlərin bilik və səriştəsinin sınaq qiymətləndirməsi aparılacaq.

www.modern.az, ***21.05.2014***

---

**Azər Mehdiyev: "Maaşların artırılması heç nəyi dəyişməyəcək"**

Bakı Şəhəri üzrə Təhsil İdarəsi iyun ayında paytaxtın ümumtəhsil məktəblərində çalışan müəllimlərin sınaq qiymətləndirilməsini aparacaq.

AzVision.az bununla bağlı ekspert Azər Mehdiyevin fikirlərini öyrənib.

Onun sözlərinə görə, hazırda Azərbaycanda təhsil sahəsində ciddi islahatlara ehtiyac var. O qeyd edib ki, bu həm də təhsil sisteminin özünün qurulması, təhsilalanlarla münasibətlərin daha səmərəliləşdirilməsi, həm də təhsil işçilərinin öz bilik və bacarıqlarının artırılması, onların əməkhaqlarının yüksəldilməsi və ölkədə müasir dövrün tələblərinə cavab verən təhsil sisteminin qurulmasına ehtiyac var.

A.Mehdiyev bildirib ki, təhsil sisteminin qurulmasında müzakirə edilən məsələlərdən biri də təhsilin əsas tərəflərindən biri olan təhsilverənlərin bilik və bacarıqlarının artırılması, onların təhsilin keyfiyyətinin yüksəldilməsi məsələsidir:

"Biz təhsil sahəsində əməkhaqlarının aşağı olması, onların əməkhaqqının yüksəldilməsini tələb edirik. Lakin, bu da bir reallıqdır ki, öz-özlüyündə indiki şəraitdə təhsil işçilərinin əməkhaqqının Avropa standartlarına uyğun olması həm büdcə imkanları baxımından məhdud olmaqla yanaşı, həm də keyfiyyət verməyəcək, heç nəyi dəyişməyəcək. Ona görə ki, bu gün təhsil işçilərinin özlərinin arasında tələblərə cavab verməyən, pedaqoji qabiliyyət baxımından bilik, bacarığı xeyli dərəcədə aşağı olan insanlar var ki, onların dəyişdirilməsinə, öz üzərlərində işləməsinə ehtiyac var".

Ekspert sınaq qiymətləndirmə ilə yanaşı, şagird və tələbələrin öz müəllimlərini qiymətləndirilməsi sistemindən danışıb. Bildirib ki, bu sistem vasitəsilə müəllimlərin hansı bacarığa sahib olması üzə çıxacaq:

"Son zamanlarda həm orta məktəblərdə, həm də ali məktəblərdə şagirdlərin müəllimləri seçmək imkanlarından danışılır. Bildirilir ki, tələbələr və şagirdlər öz müəllimlərini seçə bilsinlər. Lakin burada belə bir məqam ortaya çıxır ki, yeni gələn tələbələr və şagirdlər müəllimlər haqqında məlumatsız olur. Ona görə də əvvəlki illərin məzunlarının fikirləri həmin şagirdlərə çatdırılmalıdır".

Azər Mehdiyev bildirib ki, bu sistem müəllimlərin sınaq qiymətləndirmədən keçməsi zamanı çox önəmli rol oynayacaq:

"Bu bir tərəfdən, tələbələrin müəllimləri seçməsinə asanlıq gətirir, həm də müəllimlərin bacarığına dair məlumatlarla bağlı rəhbərliyin əlində sənəd olur. Bu, həm də Azərbaycanda təhsil işçilərinin sınaq qiymətləndirmədən keçməsi zamanı çox önəmli kriteriyalardan biridir. Birdən-birə bütöv təhsil sistemini dəyişə bilməsək də, addım-addım bir istiqamətdə dəyişiklik aparılmalıdır. Sınaq qiymətləndirmənin mühüm göstəricilərindən biri də şagirdlərin müəllimlərə olan münasibəti olacaq".

Ekspert bildirib ki, hazırda müəllimlər bu sınaq qiymətləndirməyə hazır olması ilə bağlı ona çoxlu suallar verilir:

"Bu əslində qəribə görsənir. Ümumiyyətlə, onlar nə zaman hazır olacaqlar? İndidən başlamaq lazımdır ki, müəllimlər öz üzərində məsuliyyət hiss eləsinlər. Və təbii ki, sınaq qiymətləndirmə zamanı tələb olunan meyarların seçilməsi məsələsi önəmlidir, bu dəqiqliklə işlənməlidir. Lakin müasir dövrdə müəllimlər üçün kompüter bacarıqlarının yoxlanılması çox vacib məsələdir. Çünki onun ən adi informasiyanı internetdən axtarıb tapa bilməsi, informasiyaların ötürülməsi zamanı müasir texnologiyalardan yararlana bilmə dərəcəsi yoxlanılır və bu dərin proqram bilikləri tələb edən məsələ deyil. Adi biliklər səviyyəsində bir neçə vacib məqam kimi qiymətləndirilir. Burada qorxulu bir şey görmürəm. Yəni kompüterdə informasiyanın axtarılması, ötürülməsi, toplanması və s. bunların hər bir müəllimin öyrənməsi vacib şərtdir. Müəllim sınaq qiymətləndirilməsi haqqında məlumat alan kimi məsuliyyəti artacaq. Kurslara gedəcək və ya öz üzərində işləyəcək, eləcə də evdə övladları vasitəsilə bunu öyrənəcək", - deyə ekspert əlavə edib.

[www.azvision.az](http://www.azvision.az)***, 20.05.2014***

---

**Məlahət Mürşidli: "Bu qiymətləndirmə müəllimi öz üzərində işləməyə vadar edəcək"**

Bakı Şəhəri üzrə Təhsil İdarəsi iyun ayında paytaxtın ümumtəhsil məktəblərində çalışan müəllimlərin sınaq qiymətləndirilməsini aparacaq.

AzVision.az bununla bağlı təhsil üzrə ekspert Məlahət Mürşidlinin fikirlərini öyrənib.

Sınaq qiymətləndirmə ilə tanış olduğunu bildirən ekspert nazirliyin bu layihəsini müsbət addım adlandırıb:

"2007-ci ildən bəri müəllimlər tez-tez kurslarda, seminarlarda iştirak edirlər. Bu gün isə sınaq qiymətləndirməni müəllimlərin peşəkarlıq səviyyəsini, onların öyrəndiklərini yerlərdə necə həyata keçirdiklərinin monitorinqi kimi qiymətləndirirəm. Müəllim dünən aldığı biliklə kifayətlənməməlidir, onlar hər gün, hər saat öz üzərində çalışmalıdır. Çünki yeniliklər olduqca çoxdur, informasiya bolluğu əsridir. Şagirdlərimiz bu sahədə bizdən öndədir, buna görə də düşünürəm ki, bu sınaq qiymətləndirmənin çox

müsbət təsiri olacaq. Bu qiymətləndirmə müəllimi öz üzərində işləməyə vadar edəcək".

Təhsil ekspertinin sözlərinə görə, bu qiymətləndirmə nəticəsində müəllimlərimizin hansı sahədə çatışmayan cəhətlərinin olduğu üzə çıxacaq:

"Bu cəhətlər də Təhsil Nazirliyindən, məktəb rəhbərliyindən, yoxsa müəllimdənmi asılıdır, bunlar məlum olacaq. Buna uyğun olaraq da yeni dərs ilindən müəllimlərin peşə səviyyəsinin təkmilləşdirilməsi üçün müxtəlif yollardan istifadə ediləcək və müəllimlərin öz üzərində işləməsinə şərait yaradılacaq".

M.Mürşidli sınaq qiymətləndirmənin necə həyata keçirilməsindən danışıb. Onun sözlərinə görə, buraya vətəndaş cəmiyyəti qurumlarının üzvlərini dəvət etmək olar:

"Elə dəqiq işlənməlidir ki, orada qeyri-obyektiv, neqativ hallara yol verilməsin. Biz indidən məlumatlar alırıq ki, bəzi məktəblər təşvişə düşüb ki, hansısa addımlar atmaq lazımdır. Belə neqativ hallara yol verməmək üçün mexanizm dəqiq işlənməlidir".

Bu prosesin yaxın vaxtlarda bölgələrdə də həyata keçiriləcəyini bildirən təhsil eksperti qeyd edib ki, ilk olaraq Bakıdan başlanılıb:

"İndi Bakıdan başlamışıq, mərhələ-mərhələ bütün rayonlardakı müəllimlər arasında bunu keçirmək lazımdır".

Müəllimlərimiz bu qiymətləndirilməyə hazırdırmı sualına isə Məlahət Mürşidli belə cavab verib:

"Düşünürəm ki, bununla bağlı problem yoxdur. İmtahanların keçirilməsi iyun ayında başlayacaq və buna hələ ki bir ay var. 2007-ci ildən başlayaraq davamlı olaraq seminarlar keçirilir. Müəllim birdəfəlik anlamalıdır ki, seminarı gözləməməlidir, həmişə öz üzərində işləməlidir, özü də mükəmməlləşməyə can atmalıdır. Başa düşməlidir ki, 70-ci illərin, keçən əsrin müəllimi olmamalıdır. 21-ci əsrin tələbləri tamam başqadır. Qiymətləndirmə 3 istiqamət üzrə aparılacaq ki, müəllimin öz fənnini bilməsi vacibdir. İkincisi innovativ metodlardır ki, bunu biz seminarlarda öyrətmişik. Digər cəhət kommunikasiyadır. Universitetdə öyrəndikləri bilik və onu tətbiq etmək bacarığı davamlı surətdə həyata keçən prosesdir. Onlar nədən çəkinsinlər, nədən narahat olsunlar? Bu, sınaq qiymətləndirməsidir".

Məlahət Mürşidli eyni zamanda Təhsil Nazirliyinə sınaq qiymətləndirmə ilə bağlı təklif irəli sürüb:

"Təklif edirəm ki, suallar bankı hazırlansın. Bu da narahatlığı aradan qaldırar, müəllimləri stressdən xilas edər. Həm də müəllim vərəqləyər, bir ay müddətində suallarla tanış olar. Belə addım atılsa, bu, ümumi işimizə fayda verər", - deyə ekspert əlavə edib

Qeyd edək ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsi iyun ayında paytaxtın ümumtəhsil məktəblərində çalışan müəllimlərin sınaq qiymətləndirilməsini aparacaq.

Sınaq qiymətləndirilməsi 3 istiqamətdə - fənn, metodika, kommunikativ qabiliyyətə dair sorğu əsasında aparılacaq. Sınaq qiymətləndirilməsinin fənn istiqaməti - müəllimə öz bilik və bacarığını obyektiv dəyərləndirmək, peşəsi üçün əhəmiyyətli olan zəif və güclü cəhətlərini müəyyən etmək imkanı verəcək

Qiymətləndirilmə Bakı şəhərinin 12 rayonu üzrə ayrı-ayrı məktəblərdə təşkil olunacaq və 2 saat davam edəcək.

Sınaq qiymətləndirilməsi ilə müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və karyera inkişafı, onların bilik, bacarıq və səriştəsinin artırılmasına xidmət edən yeni sistemin yaradılmasına başlanılması nəzərdə tutulur.

***www.azvision.az, 13.05.2014***

## Nadir İsrafilov: "Bütün müəllimlər eyni əməkhaqqı ala bilməz"

Təhsil eksperti Nadir İsrafilov Bakı şəhəri üzrə Təhsil İdarəsi tərəfindən iyun ayında paytaxtın ümumtəhsil məktəblərində çalışan müəllimlərin sınaq qiymətləndirilməsi prosesinə münasibət bildirib.

Ekspert "Qafqazinfo"ya açıqlamasında deyib ki, müəllimlərin bilik və səriştəsinin sınaq qiymətləndirilməsi onların attestasiya məsələsinin ilkin mərhələsidir: "SSRİ dönəmində hər beş ildən bir müəllimlərin attestasiyası keçirilirdi. Müstəqillik əldə edəndən sonra bu məsələ bir növ unuduldu. Nəhayət, 1999-cu ildə bu məsələyə diqqət ayrıldı. Ancaq nəticəsi olmadı.

Müəllimlərin stimullaşdırılması, onların əməkhaqlarına diferensial yanaşılması məsələsi var. Çünki bütün müəllimlər eyni əməkhaqqı ala bilməz. Müəllimlər attestasiyadan keçəcək. Ondan sonra onlara dərəcələr veriləcək və buna görə də maaşlar müəyyənləşdiriləcək".

N. İsrafilov bildirib ki, Təhsil Nazirliyinin yeni komandası bu məsələyə ciddi yanaşır: "Hazırda müəllimlərin sayı 170 mindən çoxdur. Attestasiya məsələsi də nisbətən unudulduğu üçün, bu böyük kampaniyanı bir dəfəlik etmək mümkün deyil. Ona görə də hələlik Bakı şəhərində Təhsil İdarəsinə tapşırılıb ki, sınaqlar keçirilsin və sınaq əsasında təcrübə olunsun, müəyyən təkliflər verilsin".

www.qafqazinfo.az, ***19.05.2014***

---

## Etibar Əliyev: "Bu, müəllimlərin xeyrinədir"

Təhsil eksperti Etibar Əliyev Bakı şəhəri üzrə Təhsil İdarəsi tərəfindən iyun ayında paytaxtın ümumtəhsil məktəblərində çalışan müəllimlərin sınaq qiymətləndirilməsi prosesinə münasibət bildirib.

E.Əliyev "Qafqazinfo"ya açıqlamasında bildirib ki, bu proses uğurla həyata keçirilsə, müəllimlərin attestasiyasının həyata keçirilməsinə yardımçı ola bilər:

"Bütün dünyada müəllimlərin fənni necə tədris etməsi, sinifdəki davranışı, bilik və bacarığı həmçinin valideynlərlə apardığı iş izlənilir. Bu da birbaşa təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına xidmət edir. Sınaq qiymətləndirməsinin metodika hissəsi kurikulumun tətbiqi, müasir təhsil texnologiyaları ilə işləmək bacarığı, şagirdlərin qiymətləndirilməsi kimi məsələləri əhatə edir. Hazırda bizim bir sıra müəllimlərin bu texnologiyalarla işləmək bacarığı yoxdur.

Kommunikativ bölüm isə müəllimlərin şagirdlərlə necə ünsiyyət qurmasını özündə ehtiva edir. Bütün dünyada bu proses şagirdlərin nailiyyətlər əldə etməsinə, daha uğurlu təhsil almasına gətirib çıxarır. Sınaq qiymətləndirməsi bütövlükdə yaxşı haldır. Bu, orta məktəb müəllimlərinin xeyrinədir".

www.qafqazinfo.az, ***13.05.2014***

---

## Emin Əmrullayev: Azərbaycanda gələn ildən bəzi müəllimlər üçün həvəsləndirici tədbirlərin tətbiqinə başlanacaq

Təhsil Nazirliyinin Təhsilin keyfiyyətinin qiymətləndirilməsi sektorunun müdiri Emin Əmrullayevin "Trend"ə müsahibəsi

**- Bakıda çalışan orta məktəb müəllimlərinin fəaliyyətinin sınaq qiymətləndirilməsi zərurəti nədən yarandı?**

- Təhsil sistemində keyfiyyətin qaldırılması, ayrı-ayrı müəllimlərin peşəkar inkişafına dəstək olmaq üçün bu tip qiymətləndirmələrin aparılması normal praktikadır. Dünyanın bir çox ölkələrində belə qiymətləndirmələr milli və ya regional səviyyədə həyata keçirilir. Bakıda da belə bir sınaq qiymətləndirmənin keçirilməsinin əsas məqsədi müəllimlərlə bağlı mövcud vəziyyəti, müəllimlər arasındakı mövcud fərqləri dəyərləndirmək, müəllimlərin əmək fəaliyyətinin motivasiyasını qaldırmaqdır.

Düşünürük ki, bu sınaq qiymətləndirmənin nəticəsi olaraq, biz Bakı şəhərində rayonlar, müxtəlif fənlər, müxtəlif yaş qrupları və s. faktorlara görə ayrı-ayrı keyfiyyət göstəricilərinə daha yaxından bələd olacağıq. Bu, gələcəkdə nazirlik tərəfindən müxtəlif qərarların verilməsində, müəllimlərin daha yaxşı hazırlanması istiqamətində müəyyən tədbirlərin həyata keçirilməsində, həmçinin ixtisasartırma, müəllimlərin yenidənhazırlığı işinin təşkili baxımından zəruri olan layihədir.

**- Sınaq qiymətləndirmədə iştirak edəcək müəllimlər bu prosesə necə hazırlaşa biləcəklər?**

- Artıq imtahanın strukturu bəllidir. İmtahanda 40 sual ixtisas fənni, 20 sual metodika, 20 sual isə müəyyən kommunikativ qabiliyyətlərin ölçülməsi ilə bağlıdır. Düşünürəm ki, müəllimlərdən hər hansı hazırlıq tələb olunmur. Çünki bu suallar müəllimlərin gündəlik iş prinsipləri ilə bağlı olacaq. İxtisasla bağlı suallar daha çox kurikulumu əhatə edəcək. Suallar siniflər üzrə strukturlaşdırılacaq. Yəni müəllimin hansı sinifdə hansı keyfiyyətdə dərs demək imkanları da müəyyənləşdiriləcək. Çünki bəzi müəllimlər aşağı siniflərdə daha rahatlıqla yüksək səriştəlilik göstərirlər. Yuxarı siniflərdə dərs dedikdə isə müəyyən mənada çətinlik çəkirlər.

Sualların metodika ilə bağlı hissəsi isə müəllimlərin tədris zamanı tətbiq etdiyi müxtəlif metodlar, yeni fənn kurikulumları, yeni yanaşmalar, hər hansı fəal təlim, interaktiv təlim metodlarının tətbiqi məsələlərini əhatə edəcək. Müəllimlər bu suallarla tədrisi müasir standartlar əsasında nə dərəcədə qura bilmək qabiliyyətlərinin olduğunu göstərəcəklər. Sualların kommunikativ hissəsi müəllimlərin hazırkı emosional durumu, onların ünsiyyət qurma qabiliyyəti, sinfi idarəetmə, liderlik qabiliyyətlərini və s. ölçmək üçün aparılan bir sorğu olacaq.

Çox önəmli məsələlərdən biri budur ki, sınaq qiymətləndirmə attestasiya və imtahanla qarışdırılır. Ancaq bunlar fərqli məsələlərdir.

**- Sınaq qiymətləndirmə zamanı zəif nəticə göstərən müəllimlərin fəaliyyətindəki zəif məqamlar hansı formada aradan qaldırılacaq?**

- Təbii ki, hər bir qiymətləndirmə nəticəsində müəyyən boşluqlar aşkarlana bilər. Adətən, belə boşluqların, çatışmazlıqların aradan qaldırılması üçün hansısa fəaliyyət planı hazırlanır. Təbii ki, bu barədə nəticələr məlum olduqdan sonra daha ətraflı danışmaq olar. Amma ümumilikdə bir məsələ aydındır ki, sınaq qiymətləndirmə müəllimlərin ayrı-ayrı sahələr, mövzular, fənlər üzrə peşəkarlıq səviyyəsini ölçməyə imkan verəcək. Önəmli olan məsələ məktəblərdə keyfiyyətli tədrisin təşkilidir. Biz hamımız bunu qəbul etməliyik ki, məktəbdə müəllim zəif olarsa, tədrisin keyfiyyəti və təşkili vəziyyəti də aşağı olar. Bu zəif məqamlar müəyyən edildikdən sonra nazirlik tərəfindən müəyyən tədbirlər həyata keçiriləcək. Müəllimlərin fəaliyyətindəki boşluqları aradan qaldırmaq üçün təlimlər, yenidənhazırlıq, ixtisasartırma kursları təlimləri təşkil ediləcək və müəllimlər bu təlimlərə cəlb olunacaq.

**- Qiymətləndirmənin nəticələri nə qədər müddətə bilinəcək?**

- Qiymətləndirmə Bakıda müxtəlif zonalar, müxtəlif fənlər üzrə iyun ayı boyunca keçiriləcək. Qiymətləndirmə keçirildikdən təxminən 1 həftə-10 gün sonra nəticələr bilinəcək.

**- Sınaq qiymətləndirmədə yüksək nəticə göstərən müəllimlərin fəaliyyəti hansı formada optimallaşdırılacaq?**

- Nazirlik tərəfindən çox yüksək peşəkarlıq səviyyəsinə malik müəllimlər üçün müəyyən həvəsləndirmə tədbirlərinin görülməsi, bu müəllimlərin daha çox dərs saatı ilə təmin edilməsi, dərs bölgüsünün aparılması zamanı göstərilən nəticələrin nəzərə alınması nəzərdə tutulur. Ancaq xüsusi qeyd edilməlidir ki, sınaq qiymətləndirmə müəllimləri cəzalandırmaq üçün keçirilmir. Bu, daha çox müəllimlərin mövcud peşəkarlıq səviyyəsini ölçmək, nazirliyin gözləntiləri ilə müəllimlərin mövcud vəziyyəti arasında olan fərqi müəyyən etmək, müəllimlərin fərqli peşəkar istiqamətini daha da sürətləndirməkdir.

**- Qiymətləndirmədə yüksək nəticə göstərən müəllimlər üçün həvəsləndirici tədbirlərin tətbiqinə gələn tədris ilindən başlanılacaq?**

- Bəli. Təbii ki, bu nəzərə alınacaq. Stimullaşdırıcı tədbirlər peşəkarlıq səviyyəsi yüksək olan müəllimlərin nazirlik tərəfindən müxtəlif layihələrə cəlb olunması, müəyyən qiymətləndirmə layihələrinin, dərsliklərin hazırlanması, ayrı-ayrı mövzularla bağlı müəyyən metodiki məsələlərin həllində iştirakı, ümumiyyətlə, təhsil islahatlarının həyata keçirilməsində bu müəllimlərin ideyalarının, yanaşmalarının tətbiqi formatında ola bilər. Həmin müəllimləri nümunə kimi digər müəllimlərə göstərməklə keyfiyyət standartlarını da müəyyən etmək həvəsləndirmə metodlarından biri ola bilər.

**- Sınaq qiymətləndirmələrin keçirilməsi dövriliyi necə olacaq?**

- Bu qiymətləndirmələr hər il olmasa da, mütəmadi olaraq keçirilməlidir və keçirilməsi də nəzərdə tutulur. Çünki bu, həm də nazirliyin öz işini qiymətləndirməsi və həyata keçirilən tədbirlərin səmərəliliyini ölçmək baxımından çox önəmlidir.

**- Sınaq qiymətləndirmənin ilk ixtisas, orta ixtisas və ali təhsil müəssisələrində çalışan müəllimlər üçün keçiriləcəyi gözlənilirmi?**

- Hazırda bu qiymətləndirmə ümumtəhsil müəssisələri üçün keçirilir. Orta məktəblərdə bu qiymətləndirməni keçirmək nisbətən asandır, amma ali təhsil müəssisələrində fənlərin sayı 500-dən daha çox olduğundan onu praktiki olaraq keçirmək daha çətindir. Buna görə də hazırda bu məsələ nəzərdə tutulmur.

**- Sosial məzuniyyətdə olan və əmək qabiliyyətini itirən müəllimlər sınaq qiymətləndirmədə iştirak etməyəcəklər. Həmin müəllimlərin sonradan bu prosesdə iştirakı təmin ediləcəkmi?**

- Bu müəllimlərin qiymətləndirmədə iştirakı sosial, tibbi nöqteyi-nəzərdən mümkün deyil. Buna görə də bu amil nəzərə alınır. Həmin müəllimlər üçün bu istisna hallar aradan qalxdıqdan sonra onların da gələcəkdə qiymətləndirmələrdə iştirakı nəzərdə tutulur.

www.trend.az, ***15.05.2014***

---

**Yuliya Kərimova: "Sınaq qiymətləndirmə bir növ tədqiqatdır"**

*Bakı şəhəri Tahir Həsənov adına 23 nömrəli məktəbin direktoru Yuliya Kərimovanın "Kaspi"yə müsahibəsi*

Müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və karyera inkişafı, onların bilik, bacarıq və səriştəsinin artırılmasına xidmət edən yeni sistemin yaradılması - sınaq qiymətləndirilmənin həyata keçirilməsi istiqamətində Təhsil Nazirliyi ilə Bakı Şəhəri üzrə Təhsil İdarəsi artıq ilk addım atıb. Hələlik paytaxt məktəbləri arasında keçirilməsi nəzərdə tutulan sınaq qiymətləndirmə müəllimlər arasında müxtəlif suallar yaradıb.

Bakı şəhəri Tahir Həsənov adına 23 nömrəli məktəbin direktoru Yuliya Kərimova "Kaspi"yə müsahibəsində sınaq qiymətləndirmənin əhəmiyyətindən danışıb.

**- Gələn aydan müəllimlərin sınaq qiymətləndirilməsinə başlanılacaq. Sizcə, bu sistem müəllimlərin peşəkarlığına hansı təsir göstərəcək?**

- Sınaq qiymətləndirmənin birbaşa məqsədi müəllimin hazırkı vəziyyətini öyrənməkdir. Yəni onlar nəyi bilir, nəyi bacarırlar. Sınaq qiymətləndirmə müəllimlərin peşəkarlığını daha da təkmilləşdirmək, onların ehtiyaclarını öyrənmək məqsədilə keçirilir. Amerikada da "Ehtiyacların öyrənilməsi" istiqamətində tədqiqatlar aparılır və həyata keçirilir. Belə ki, məlumat toplanılır və daha sonra qərara gəlinir ki, maliyyə nəyə yönəldilsin və ya daha ehtiyaclı sahələr hansılardır. Bu perspektivdən yanaşsaq, sınaq qiymətləndirmənin təsiri çox və pozitiv olmalıdır. Biz sistem olaraq müəllimlərin bilik səviyyəsini ortaya çıxaracağıq. Həmçinin "biz nə etməliyik ki, onlar peşəkarlar kimi inkişaf etsinlər" istiqamətində tədbirlər həyata keçiriləcək.

**- Sınaq qiymətləndirməni uğursuz keçən müəllimlər üçün hansı tədbirlər həyata keçiriləcək?**

- Bu sınaq qiymətləndirmə olduğu üçün, əslində heç bir tədbirin görülməsi nəzərdə tutulmur. Uzunmüddətli tədbirə gəldikdə, onlar üçün təlimlər keçiriləcək, ixtisasartırma kurslarından keçəcəklər. Biz növbəti sınaqda onlardan daha yaxşı nəticə gözləməli olacağıq. Müəllim də başa düşməlidir ki, onun peşəkar kimi ehtiyacları bu sahədədir və o, öz üzərində işləməlidir ki, daha da yaxşı işçi olsun. Bunun tədris yükünə heç bir təsiri olmamalıdır. Bu sınaqdır, hələ heç attestasiya da deyil. Sınaq qiymətləndirmə bir növ tədqiqatdır.

**- Ümumiyyətlə, sizcə hazırkı müəllimlər bugünkü tədris metodlarının tələblərinə nə qədər cavab verirlər?**

- Mənə elə gəlir ki, təcrübəli müəllimlərdə elə də problem olmamalıdır. Ola bilsin ki, metodikaya, psixometriyaya aid blokda hansısa problemlər üzə çıxa biləcək. Onlar da yenidir, yəni müəllimlərimiz buna tam hazır deyil. Bəzən bir az təşvişə düşürlər ki, psixometriya nədir - fəndirmi, sahədirmi və ya hansısa qabiliyyətdirmi? Biz hazırda materialları toplayır, müəllimlərlə bölüşüb müzakirə edirik. Nə qədər ki, insan nəyisə bilmir, onun üçün nəsə sual altında qalır və o məsələ təşviş yarada bilir. Ancaq onu həmkarları ilə müzakirə edəndə, müəyyən hazırlıq görəndə artıq normal bir hala çevrilir. Müəllim bir peşəkar kimi öz inkişaf məqsədlərini müəyyən etməyi bacarmalıdır. Region üzrə tədqiqatlar göstərir ki, bu, təkcə bizim ölkənin müəllimlərinin problemi deyil, ümumi problemdir: müəllim özünün peşəkar inkişaf məqsədini müəyyən edə bilmir. Müəllimdən "Sənin daha yaxşı olmaq üçün hansı ehtiyacların var?" - deyə soruşanda bəzən bu suala cavab verə bilmir. İndi informasiya və texnologiyaların tətbiqi ilə bağlı müəllimlərdə "Bilirəm ki, mən bu proqramdan istifadə edə bilmirəm, bunun üçün çalışmalıyam, kurikulum öyrənməliyəm"- tendensiyası da yaranır. Sınaq qiymətləndirmə bu tendensiyanı daha da qüvvətləndirəcək. O insan ki, özünün peşəkarlığını və məqsədlərini müəyyən edə bilir, demək, o, doğrudan da peşəkardır. Sınaq qiymətləndirmənin qısa müddətli effektlərindən biri də o olacaq ki, müəllim daha yaxşı olması üçün "mən nəyi bacarıram və nə etməliyəm" sualına cavab verə biləcək.

**- Sınaq qiymətləndirmənin attestasiyaya hazırlıq kimi dəyərləndirilməsi fikri nə qədər həqiqətdir?**

- Mexanizm baxımından və texniki tərəfdən yanaşsaq, ola bilər. Artıq bir dəfə bu prosesdən keçən

müəllim, ikinci dəfə attestasiyadan keçəndə müəyyən qədər özünə güvənmiş olacaq. Bu, məsələnin psixoloji tərəfidir. Müəllim diaqnostik qiymətləndirmədən sonra nəyi daha yaxşı öyrənməli olduğunu biləcək. O, öz üzərində işləyəcək və attestasiya üçün müəyyən hazırlığı əldə etmiş olacaq.

www.kaspi.az, ***20.05.2014***

---

**Vidadi Bağırov: "Sınaq qiymətləndirilməsi təhsilin inkişafına səbəb olacaq"**

"Azərbaycanda müəllimlərin bilik və səriştəsinin sınaq qiymətləndirilməsi çox vacibdir". Bunu Lent.az-a açıqlamasında təhsil eksperti, əməkdar müəllim Vidadi Bağırov bildirib. Onun sözlərinə görə, müəllimin bilik və bacarığı onun şagirdi ilə ölçülür: "Müəllim nə qədər bilikli, təcrübəli olacaqsa, onun dərs dediyi şagirdlər də yaxşı olacaq".

Təhsil eksperti vurğulayıb ki, sınaq qiymətləndirilməsi Azərbaycan təhsili üçün faydalı olacaq. "Bununla müəllimlərin ehtiyacları öyrəniləcək. Həmçinin, həmin ehtiyacların aradan qaldırılması ilə bağlı Təhsil Nazirliyi tərəfindən tədbirlər görüləcək", - deyə V.Bağırov əlavə edib.

V.Bağırov onu da qeyd edib ki, müəllimlərin bilik və səriştəsinin sınaq qiymətləndirilməsi təhsil işçilərinin attestasiyasına hazırlıq kimi də dəyərləndirilməlidir.

"Sınaq qiymətləndirilməsi ilə real vəziyyət qiymətləndiriləcək. Ümumilikdə bu, təhsilin inkişafına səbəb olacaq".

Qeyd edək ki, sınaq qiymətləndirmədə Bakı məktəblərində daimi müəllim vəzifəsini tutan müəllimlər və analıq məzuniyyəti yerinə müddətli müqavilə ilə işləyən müəllimlər (digər ümumtəhsil müəssisəsində müəllim işləyən əvəzçilər istisna olmaqla) iştirak edəcək. Qiymətləndirmədə məktəb direktorları, direktor müavinləri, psixoloqlar, laborantlar, uşaq birliyi rəhbərləri, sosial məzuniyyətdə olan və müvəqqəti əmək qabiliyyətini itirən müəllimlər iştirak etməyəcək.

www.lent.az, ***15.05.2014***

---

**"Müəllimlərin gələcək attestasiyası asanlaşacaq"**

Təhsil naziri Mikayıl Cabbarov müəllimlərin bilik və səriştəsinin sınaq qiymətləndirilməsi barədə əmr imzalayıb. Əmrə əsasən gələn aydan başlayaraq, Bakı məktəblərində çalışan müəllimlərin bilik və səriştəsinin sınaq qiymətləndirilməsi aparılacaq.

"Müəllimlərin sınaq qiymətləndirilməsi təhsil sistemində müsbət irəliləyişə səbəb olacaq". Bunu Simsar.az-a Sumqayıt Şəhər Təhsil Şöbəsinin keçmiş müdiri, təhsil eksperti Vidadi Bağırov müəllimlərin bilik və səriştəsinin sınaq qiymətləndirilməsini şərh edərkən deyib. Onun sözlərinə görə, bu gün cəmiyyətimizdə texnoloji yeniliklər baş versə də, şagirdlərin təlim-tərbiyə prosesində müəllimlər stimulverici qüvvə olaraq qalır.

Vidadi Bağırov əlavə edib ki, sınaq qiymətləndirilməsinin aparılması ilə müəllimlərin ehtiyacları öyrənilməli, gələcəkdə onların peşəkarlığının daha da inkişaf etdirilməsi üçün yeni işlər aparılmalıdır: "Bununla müəllimlərin gələcək attestasiyası, ixtisasartırma kursларının təşkili, dərsliklərin təkmilləşdirilməsində müsbət dəyişikliklər əldə edilə bilər".

[www.simsar.az](http://www.simsar.az)***, 21.05.2014***

***"Azərbaycan müəllimi" qəzeti***